# Heydər Əliyev Fondu Gəncədəki İmamzadə ziyarətgahında iftar süfrəsi açmışdır

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gəncədəki İmamzadə ziyarətgahında iftar süfrəsi açılmışdır.

İftar süfrəsində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək möminləri ramazan ayı münasibətilə təbrik edərək demişdir ki, 11 ayın sultanı hesab edilən ramazan dostluq, qardaşlıq, həmrəylik ayıdır. Ölkə ərazisində olan dini məbədlərin təmir və bərpasına, islami və milli-mənəvi dəyərlərin qorunmasına diqqət çəkən icra hakimiyyəti başçısı Azərbaycanın dünya ölkələri üçün tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırmışdır.



Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürk ramazan ayının yüksək humanizm ideyalarını özündə ehtiva etməsindən söz açıb. O qeyd edib ki, ramazan islamın ən şəfqətli və müqəddəs ayı hesab olunur. Bu ayda imkansız və kimsəsizlərə yardım göstərmək, dayaq olmaq, bayram sevincini birgə yaşamaq vacib əməllərdəndir.

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə nümayəndəsi Hacı Tahir Abbasov deyib ki, müqəddəs ramazan ayı insanın əxlaqi davranışını tənzimləyir, qeybətdən, yalandan çəkindirir. Bu cür tərbiyəvi məziyyətlərinə görə də ramazan ayına 11 ayın sultanı deyirlər.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-amanlıq və sülh arzulanıb. Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhlarına dualar oxunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.-28 may.- S.9.